**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində (bundan sonra – Agentlik) təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Agentliyin nizamnaməsinin təsdiq olunması, nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

2.1.2. illik maliyyə hesabatlarının təsdiq edilməsi;

2.1.3. icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.1.4. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

2.1.5. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edin əqdin bağlanmasına razılıq verilməsi;

2.1.6. Agentliyin yenidən təşkili və ləğv edilməsi;

2.2. Agentliyə:

2.2.1. inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

2.2.2. strukturunun təsdiqi.

3. Müəyyən edilsin ki:

3.1. Agentliyin ilkin nizamnamə fondu dövlət büdcəsinin vəsaiti hesabına formalaşır və 4 000 000 (dörd milyon) manat təşkil edir;

3.2. Agentliyin fəaliyyətinə rəhbərliyi həyata keçirmək məqsədi ilə İdarə Heyəti yaradılır;

3.3. Agentliyin İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, habelə onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

4. Agentlik dövlət qeydiyyatına alındığı gündən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin balansında olan əmlak Agentliyin balansına verilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin balansında olan əmlakın Agentlik dövlət qeydiyyatına alındığı gündən Agentliyin balansına verilməsini bir ay müddətində təmin etsin;

5.4. Agentliyin investisiya əməliyyatlarının aparılması qaydasının layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Agentlik:

6.1. dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin;

6.2. strukturunu və işçilərinin say həddini bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin.

7. Azərbaycan Respublikasının Vergilər Nazirliyi Agentliyin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3.1-ci bəndində göstərilən məbləğdə maliyyələşməni bir ay müddətində təmin etsin.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 sentyabr 2017-ci il
№ 1592

Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin**

**NİZAMNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik) "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əsasında yaradılmış, icbari tibbi sığortanın tətbiqini təmin edən, *xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri icbari tibbi sığorta fondunda cəmləşdirən, icbari tibbi sığorta üzrə dövlət adından tibbi xidmətlərin mərkəzləşdirilmiş alıcısı funksiyasını həyata keçirən* və bununla bağlı zəruri xərclərin ödənilməsini təmin edən publik hüquqi şəxsdir.[1]

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır, o, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir.

1.7. Agentlik Bakı şəhərində yerləşir.

## 2. Agentliyin fəaliyyətinin məqsədi və fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyətinin məqsədi Azərbaycan Respublikasında əhalini icbari tibbi sığortaya cəlb etmək, baza (əsas xidmətlər) zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri cəmləşdirmək, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün tədbirlər görmək, həmin xidmətlərə əhalinin əlçatanlığını təmin etmək, habelə sığortaolunanların

hüquqlarını və qanuni mənafelərini qorumaq, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar toplanmış vəsaitlərdən təyinatı üzrə səmərəli istifadəni və sığorta ödənişlərinin vaxtında icra olunmasını təmin etməkdir.

2.2. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. icbari tibbi sığorta sahəsində *dövlət siyasətinin* formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;[2]

2.2.2. əhalinin icbari tibbi sığortalanmasını həyata keçirmək və icbari tibbi sığortanın maliyyə dayanıqlığını təmin etmək;

2.2.3. icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə edilməsində əhali üçün bərabər şərtlərin yaradılması, icbari tibbi sığortanın hamı üçün əlçatan olması, əhalinin sağlamlığının qorunması məqsədi ilə tibbi xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görmək;

2.2.4. icbari tibbi sığorta sahəsinin inkişafını təmin etmək.

~~*2.3. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (bundan sonra – TƏBİB) publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinə münasibətdə vahid tənzimləməni Agentlik həyata keçirir;*~~[3]

## 3. Agentliyin vəzifələri və hüquqları

3.1. Agentlik, bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. icbari tibbi sığorta və səhiyyə sahəsi üzrə *qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların* hazırlanmasında və həyata keçirilməsində iştirak edir;[4]

3.1.2. beynəlxalq təcrübə nəzərə alınmaqla, icbari tibbi sığorta sahəsində tədqiqatlar aparır və həmin tədqiqatların nəticələri əsasında *xidmətlər* zərfinin müəyyən olunmasına dair təkliflər hazırlayır;[5]

3.1.3. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, icbari tibbi sığorta haqqının məbləğinin müəyyən olunmasına dair təkliflər hazırlayır;

3.1.4. icbari tibbi sığorta haqlarının və bu Nizamnamə ilə müəyyən edilmiş digər vəsaitlərin yığılmasını və onlardan təyinatı üzrə səmərəli istifadəni təmin edir, icbari tibbi sığortanın maliyyə sabitliyinin təmin edilməsi məqsədilə *icbari tibbi sığorta ehtiyatlarını yaradır və icbari tibbi sığorta vəsaitlərini idarə edir;*[6]

3.1.5. *xidmətlər* zərfi çərçivəsində əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər görür;

3.1.6. *xidmətlər* zərfində nəzərdə tutulmuş tibbi xidmətlərin göstərilməsi üçün tibb müəssisələri ilə *tibbi xidmətlərin göstərilməsi haqqında* müqavilələr bağlayır;[7]

3.1.7. *xidmətlər* zərfinə daxil olan həcmdə göstərilən tibbi xidmətlərə görə sığorta ödənişlərinin müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə tibb müəssisələrinə ödənilməsini təmin edir;

3.1.8. icbari tibbi sığorta üzrə riskləri sığorta etdirmək üçün müraciət edən şəxslərlə icbari tibbi sığorta müqaviləsi bağlayır;

3.1.9. *xidmətlər* zərfi çərçivəsində tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərin *növünün* həcminin, müddətinin, keyfiyyətinin və tariflərinin tərəflərlə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət edir;[8]

*3.1.9-1. insan orqanlarının və toxumalarının donorluğu və transplantasiya ilə bağlı "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keyfiyyətə nəzarəti və tibbi fəaliyyətin təhlükəsizliyini, habelə bu sahədə əhalinin məlumatlandırılmasını təmin edir;* [9]

3.1.10. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, icbari tibbi sığorta sahəsində vahid elektron informasiya sistemi və elektron məlumat bazası yaradır, tibb müəssisələrinin və digər istifadəçilərin həmin elektron informasiya sistemindən istifadə imkanlarını təmin edir;

3.1.11. icbari tibbi sığortaya cəlb olunan tibb müəssisələrinin vahid reyestrini aparır;

~~*3.1.11-1. TƏBİB-in tabeliyindəki tibb müəssisələrinin akkreditasiyasını həyata keçirir;*~~ [10]

~~*3.1.11-2. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xidmətlər zərfinə daxil olmayan və TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin Qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini təsdiq edir;*~~ [11]

3.1.12. icbari tibbi sığorta sahəsində təlimlər təşkil edir, *peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər verir və onların həyata keçirilməsində iştirak edir;* [12]

3.1.13. icbari tibbi sığorta sistemində sığorta olunan şəxslərin hüquqlarının müdafiəsinə təminat verir;

3.1.14. dövlət *orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin* icbari tibbi sığorta sahəsi ilə bağlı fəaliyyətini əlaqələndirir; [13]

*3.1.14-1. icbari tibbi sığorta sahəsində elektron xidmətləri "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına uyğun olaraq təşkil edir;* [14]

*3.1.14-2. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil edir;*

*3.1.14-3. Agentlik əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görür;*

3.1.15. icbari tibbi sığorta sisteminin inkişaf istiqamətləri üzrə təkliflər verir;

*3.1.16. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin edir;* [15]

3.1.17. dövlət və kommersiya sirrinin, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən konfidensial hesab edilən, habelə həkim sirrini təşkil edən məlumatların və məxfilik rejiminin qorunması üçün tədbirlər görür;

*3.1.17-1. icbari tibbi sığorta sahəsində inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görür, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat verir;* [16]

3.1.18. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin edir;

3.1.19. icbari tibbi sığortanın təbliği və bu istiqamətdə əhalinin maarifləndirilməsi məqsədi ilə tədbirlər görür;

3.1.20. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görür;

*3.1.20-1. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, icbari tibbi sığorta sahəsində elmi-texniki nailiyyətlərin tətbiqini təmin edir;*[17]

*3.1.21. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxır və qanunla müəyyən edilmiş qaydada tədbirlər görür;*[18]

3.1.22. dövlət orqanları, beynəlxalq təşkilatlar, hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilən məqsədli proqram və layihələri birgə həyata keçirir;

3.1.23. Agentliyə ayrılan büdcə vəsaitlərindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

3.1.24. Agentliyin informasiya *təminatını təşkil edir və onun təhlükəsizliyini təmin* edir;[19]

*3.1.24-1.uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsinə nəzarət etmək;*

*3.1.24-2. uşaqların icbari dispanserizasiyası zamanı müayinələrin və baxış keçirəcək ixtisaslı mütəxəssislərin siyahısını təsdiq etmək, dispanserizasiyadan keçiriləcək və dispanserizasiyadan keçmiş uşaqların uçotunu aparmaq, dispanserizasiyanın təqvimini müəyyən etmək, dispanserizasiyadan keçmiş uşaqların registrini yaratmaq və aparmaq;*

*3.1.24-3. şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin registrini yaratmaq və aparmaq;*

*3.1.24-4. dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin registrini yaratmaq və aparmaq;*

*3.1.24-5. bədən tərbiyəsi və idmanın sosial əhəmiyyətinin, əhalinin sağlamlığının möhkəmləndirilməsindəki, fiziki inkişafındakı və sağlam həyat tərzinin formalaşdırılmasındakı rolunun təşviqində iştirak etmək;*[20]

*3.1.24-6. bədən tərbiyəsi və idmanla, o cümlədən idman-sağlamlıq turizmi ilə məşğul olan şəxslər üzərində tibbi nəzarəti həyata keçirmək, ehtiyat idman qüvvələrinin və idman növləri üzrə müxtəlif səviyyəli milli yığma komandaların idman yarışlarına hazırlığının tibbi təminatında iştirak etmək;*

*3.1.24-7. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası sahəsində tabeliyindəki tibb müəssisələrinə həvalə edilən məsələləri həll etmək;*

3.1.25. qanunla və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

3.2. Agentliyin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

*3.2.1. icbari tibbi sığorta sahəsində normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;*[21]

3.2.2. icbari tibbi sığorta ilə bağlı Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə *təkliflər vermək*, fəaliyyət istiqamətləri üzrə beynəlxalq konfransların, seminarların və digər beynəlxalq tədbirlərin keçirilməsini təşkil etmək və onların işində iştirak etmək;[22]

3.2.3. *beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə* beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;[23]

3.2.4. icbari tibbi sığorta sahəsində beynəlxalq təcrübəni öyrənmək və xaricdə fəaliyyət göstərən müvafiq qurumlarla təcrübə mübadiləsi aparmaq;

3.2.5. icbari tibbi sığortanın maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsaitlərin həcminin artırılması və icbari tibbi sığortanın maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə sərbəst maliyyə vəsaitlərini yerli bazarda investisiyaya yönəltmək;

3.2.6. *xidmətlər* zərfi çərçivəsində tibbi xidmətlər göstərilməsi üçün tibb müəssisələrini seçmək;

3.2.7. *xidmətlər* zərfi çərçivəsində tibbi xidmətlər üçün tariflərin müəyyən olunmasına dair təkliflər hazırlamaq;

~~3.2.8. *xidmətlər* zərfi ilə əhatə olunmayan tibbi xidmətlərin siyahısı və tariflərinin müəyyən olunmasına dair təkliflər hazırlamaq;~~ [24]

3.2.9. tibb müəssisəsinin və (və ya) tibb işçisinin təqsiri üzündən sığortaolunana vurulmuş zərərin ödənilməsi üçün məhkəməyə müraciət etmək;

~~3.2.10. özəl tibb müəssisələrinin akkreditasiyasında iştirak etmək;~~ [25]

3.2.11. tibb müəssisələri müqavilənin şərtlərini pozduqları hallarda tibbi xidmətlərə çəkilən xərcləri qismən ödəmək və ya ödəməkdən imtina etmək;

*3.2.12. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-20-ci maddəsinə uyğun olaraq subroqasiya hüququndan istifadə etmək;* [26]

3.2.13. sığortaolunanlara göstərilən tibbi xidmətlərin həcminin və keyfiyyətinin monitorinqini həyata keçirmək;

3.2.14. sığortaolunanlara göstərilən tibbi xidmətlər üçün tibb müəssisələrinə ödənilən sığorta ödənişlərinin əsaslılığına nəzarət etmək;

3.2.15. *dövlət orqanlarına və qurumlarına*, yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə ~~icbari tibbi sığorta sahəsi üzrə~~ zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan məlumatlar (sənədlər) almaq; [27]

*3.2.16. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;* [28]

*3.2.16-1. Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;* [29]

3.2.17. icbari tibbi sığorta sahəsində *rəy və təkliflər vermək, təhlillər, ümumiləşdirmələr və* tədqiqatlar aparmaq, analitik və metodik materiallar hazırlamaq, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq; [30]

3.2.18. könüllüləri öz fəaliyyətinə cəlb etmək;

*3.2.18-1. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;* [31]

3.2.19. istifadəsində olan əmlak barəsində qanunla nəzərdə tutulmuş hüquqları həyata keçirmək;

3.2.20. icbari tibbi sığortanın inkişafı məqsədilə investisiyalar cəlb etmək;

3.2.21. Agentliyin balansında olan dövlət əmlakını qanunvericiliyə uyğun olaraq icarəyə vermək və ya ondan istifadə etmək;

3.2.22. vəzifələrinin yerinə yetirilməsi məqsədilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

*3.2.22-1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, icbari tibbi sığortanın həyata keçirilməsi ilə bağlı publik hüquqi şəxs yaratmaq, yenidən təşkil və ya ləğv etmək;* [32]

3.2.23. qanunla və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Agentliyin idarə olunması

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyi İdarə heyəti idarə edir.

4.3. İdarə Heyəti Agentliyə *ümumi* rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi beş nəfərdən - Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyəti sədrindən və sədrin iki müavinindən və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən digər iki üzvdən ibarətdir. ~~İdarə Heyəti üzvlərinin səlahiyyət müddəti 5 (beş) ildir.~~ [33]

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun *səlahiyyətlərini İdarə Heyəti üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir*. [34]

4.5. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

4.5.1. Agentliyin *inkişaf istiqamətlərini*, strateji məqsəd və planlarını müəyyən edir və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verir; [35]

4.5.2. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir və sənədlər *(o cümlədən Agentliyin maliyyə hesabatını)* təqdim edir; [36]

*4.5.2-1. Agentliyin fəaliyyətini təşkil edir və ona nəzarət edir;* [37]

4.5.3. hər il martın 31-dək əvvəlki ildə ölkənin icbari tibbi sığorta sistemi ilə bağlı vəziyyəti və inkişaf perspektivləri barədə hesabatı, habelə Agentliyin fəaliyyətinə dair illik hesabatı hazırlayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

4.5.4. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı hüquqi aktların layihələrinə baxır, həmin layihələri aidiyyəti dövlət orqanlarına və qurumlarına təqdim edir;

4.5.5. bu Nizamnamənin 3.1.23-cü yarımbəndində nəzərdə tutulmuş vəsaitdən təyinatı üzrə xərclənməsini təmin edir;

4.5.6. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxır və qərar qəbul edir;

4.5.7. İdarə Heyətinin və əməkdaşların fəaliyyəti zamanı maraqlar münaqişəsinin istisna olunmasının qayda və şərtlərini müəyyənləşdirir ~~və onların icrasına nəzarət edir~~; [38]

4.5.8. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin *yaradılması və ya onlarda iştirak barədə, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul edir;* [39]

4.5.9. Agentliyin büdcəsinin, *strateji məqsədlərinin və* planlarının icrasına nəzarət edir; [40]

4.5.10. Agentliyin fəaliyyətinə dair daxili qaydaları, habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, *törəmə təsərrüfat cəmiyyətlərinin nizamnamələrini* təsdiq edir; [41]

4.5.11. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

1. Agentliyin~~, *habelə TƏBİB-in*~~ strukturunu və ştat vahidlərinin ümumi sayını müəyyənləşdirir; [42]

2. Azərbaycan Respublikasının maliyyə və kapital bazarında uyğun əməkhaqqı səviyyəsini nəzərə almaqla, Agentlikdə~~, habelə TƏBİB-də~~ əməyin ödənilməsi formalarını, *əməkhaqqı fondunu* və işçilərin əməkhaqlarını müəyyənləşdirir;[43]

~~3. Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq edir;~~[44]

~~4. Agentliyin xərclər smetasını təsdiq edir;~~[45]

*4.5.11-1. Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən, habelə İcbari Tibbi Sığorta Fondundan başqa dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirir;*[46]

*4.5.11-2. Agentliyin daxili audit bölməsinin fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir;*

4.5.12. Agentliyin illik maliyyə hesabatlarını tərtib edir;

4.5.13. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), *və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;*[47]

4.5.14. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

4.5.15. Agentliyin fəaliyyətinə dair illik iş planlarını, onların yerinə yetirilməsi haqqında hesabatları təsdiq edir;

4.5.16. Agentliyin sığorta ehtiyat fondlarının formalaşdırılması və bu ehtiyatlardan istifadə qaydasını müəyyən edir;

4.5.17. icbari tibbi sığorta haqlarının məbləğinin və bu haqların ödənilmə qaydasının müəyyən edilməsinə dair təkliflər verir;

4.5.18. Agentliyin kənar auditorunu təyin edir və audit hesabatını qəbul edir;

4.5.19. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görür;

*4.5.20. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;*[48]

*4.5.21. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.*

4.6. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmayaraq çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları İdarə Heyəti üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə edilmiş məsələlər üzrə qərarlar qəbul edilir. İdarə Heyətinin iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən İdarə Heyətinin digər üzvünün) səsi həlledici sayılır. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir.

*4.6-1. İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.*[49]

*4.6-2. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.*

*4.6-3. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.*

4.7. İdarə Heyətinin sədri:

4.7.1. Agentliyin *cari* fəaliyyətinə rəhbərliyi həyata keçirir və onu təmsil edir; [50]

4.7.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.7.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.7.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı digər üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.7.5. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.7.6. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.7.7. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.7.8. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

*4.7.8-1. "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının 3.6-cı bəndi nəzərə alınmaqla, müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;* [51]

*4.7.8-2. Agentliyin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;*

*4.7.8-3. icbari tibbi sığorta fondunun büdcəsinin layihəsini hazırlayır və təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;* [52]

4.7.9. Agentliyin fəaliyyət istiqamətləri üzrə məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.7.10. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət, kommersiya və həkim sirrinin, fərdi məlumatların *məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi* üçün zəruri tədbirlər görür; [53]

4.7.11. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.7.12. İdarə Heyəti sədrinin müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə, digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə isə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdimat verir;

4.7.13. İdarə Heyətinin reqlamentini təsdiq edir;

4.7.14. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin işçilərinin, *habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində ~~və TƏBİB-də~~ isə yalnız rəhbərlərin)* vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir; [54]

4.7.15. işçilərin əməyinin ödənilməsini və peşəkarlıq səviyyəsinin artırılmasını təşkil edir;

4.7.16. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.7.17. Agentlikdə vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir;

~~4.7.18. bu Nizamnamə ilə İdarə Heyətinin səlahiyyətlərinə aid edilməyən digər məsələlərə dair qərarlar qəbul edir.~~ [55]

4.8. İdarə Heyətinin üzvləri:

4.8.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.8.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.8.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.8.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxılması barədə təkliflər verirlər;

4.8.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.9. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, *həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər*. [56]

## 5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin ilkin nizamnamə fondu *9 565 947, 36 (doqquz milyon beş yüz altmış beş min doqquz yüz qırx yeddi manat otuz altı qəpik)* manatdır. [57]

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi digər əmlakdan, habelə dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə edilmiş gəlirdən, ianələrdən, qrantlardan, cəlb olunan investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Agentlik qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ~~müəyyən edilmiş qaydada~~ ödədikdən sonra Agentliyin, onun təsərrüfat cəmiyyətlərinin, idarə, filial və *nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait* üzərində müstəqil sərəncam vermək hüququna malikdir. [58]

5.5. Agentlik tərəfindən göstərilən Azərbaycan Respublikasının *Nazirlər Kabineti* tərəfindən müəyyən olunan *xidmətlər* zərfi çərçivəsində tibbi xidmətlərin və *xidmətlər* zərfi ilə əhatə olunmayan tibbi xidmətlərin tarifləri tənzimlənən qiymətlərə (tariflərə) aiddir. [59]

5.6. Agentlik, sərəncamında olan vəsaitdən bu Nizamnaməyə uyğun olaraq, Agentliyin xərclər smetası əsasında istifadə edir.

5.7. Maliyyə ilinin sonuna Agentliyin hesabında qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

## 6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, *həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti* həyata keçirir.[60]

6.2. Agentlik hər il martın 31-dək əvvəlki ildə ölkənin icbari tibbi sığorta sistemi ilə bağlı vəziyyəti və inkişaf perspektivləri barədə hesabatı, habelə Agentliyin fəaliyyətinə dair illik hesabatı Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

## 7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ~~statistik uçot aparır,~~ statistik hesabatları tərtib və təqdim edir.[61]

7.3. Agentlik filial, nümayəndəlik, idarə və təsərrüfat cəmiyyətlərinin, *habelə tabeliyindəki digər qurumların* maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.[62]

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. Agentliyin ləğvi və yenidən təşkili

Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 7 fevral 2019-cu il tarixli **520** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 10 fevral 2019-cu il, № 33, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №2, maddə 219)**
2. 2 iyun 2020-ci il tarixli **1048** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 iyun 2020-ci il, № 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 6, maddə 690)**
3. 30 dekabr 2020-ci il tarixli **1221** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 6 yanvar 2021-ci il, № 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 12, I kitab, maddə 1483)**
4. 12 iyun 2021-ci il tarixli **1355** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 13 iyun 2021-ci il, № 122, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 570)**
5. 30 noyabr 2021-ci il tarixli **1481** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 3 dekabr 2021-ci il, № 262, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1219)**
6. 13 may 2022-ci il tarixli **1677** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 may 2022-ci il, № 100, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 445)**
